AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə
Dövlət Proqramı"

**MÜHƏNDİSLİK İXTİSASLARI ÜZRƏ BAKALAVRİAT**
**BEYNƏLXALQ İKİLİ DİPLOM PROQRAMLARI**

Xarici tərəfdaş universitet:
**İNHA UNİVERSİTETİ**
**(Koreya Respublikası)**



Yerli tərəfdaş universitet:
**BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ**
**(Azərbaycan)**



**Tədris ili:** 2021/2022

| | | |
|---|---|---|
| **Hədəf:** | → | Ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, mühəndislik sahəsində Azərbaycanda 21-ci əsrin tələblərinə cavab verən yeni nəsil mütəxəssislər yetişdirmək, eyni zamanda, bu sahədə Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərini beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirmək |
| | | |
| **Təhsil səviyyəsi:** | → | **Bakalavriat** |
| | | |
| **İxtisaslar:** | → | • **İnformasiya texnologiyaları**<br>• **İnşaat mühəndisliyi**<br>• **Elektrik mühəndisliyi**<br>• **Elektron mühəndisliyi** |
| | | |
| **Proqram məzunları sahib olacaq:** | → | • Qeyd olunan mühəndislik sahələrində müasir bilik və bacarıqlara sahib olmaq;<br>• Beynəlxalq təcrübəni öyrənmək. |
| | | |
| **İlkin kvota:** | → | **25 nəfər (hər bir ixtisas üzrə / ümumilikdə 100 nəfər)** |
| | | |

| | | |
|---|---|---|
| **Müddət:** | → | **4 il** (3 il - Azərbaycanda, 1 il - Cənubi Koreyada) |
| | | |
| **Tədris dili:** | → | **3 il BMU-da İngilis dilində təhsil** (əlavə olaraq koreya dili tədris ediləcəkdir)**;**<br>**1 il İNHA-da Koreya dilində təhsil.** |
| | | |
| **Təhsilalanların maliyyələşdirilən xərcləri:** | → | Təhsilalanların maliyyələşdirilən xərcləri aşağıdakılardan ibarətdir:<br>• Təhsil haqqı;<br>• Qeydiyyat xərci;<br>• Tədris materialları və elektron informasiya resurslarına çıxış xərcləri;<br>• Cənubi Koreyada 1 illik təhsil<br>• Cənubi Koreyada 3 həftəlik yay məktəbində iştirak xərcləri,<br>• İstehsalat təcrübəsində iştirak xərcləri |
| | | |
| **İlkin seçim meyarları:** | → | • Tələbələrin seçimi Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının (bakalavriat) nəticələri əsasında tərəflər aparılır;<br>• DİM-in təşkil etdiyi qəbul imtahanında 400 və daha çox bal toplayan abituriyentlər ərizə ilə müraciət edə bilər. |
| | | |

| | | |
|---|---|---|
| **Son müraciət tarixi:** | → | DİM-in keçirdiyi qəbul imtahanlarının tarixləri elan olunandan sonra bildiriləcək |
| | | |
| **Müraciət proseduru və tələb olunan sənədlər:** | → | 2021/2022-ci tədris ili üçün DİM tərəfindən ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul olmaq üçün keçirilən imtahanın nəticəsində ikili diplom proqramı üçün müəyyən edilmiş keçid balını (400 və daha çox) toplamaq;<br>Tələb olunan sənədləri onlayn anket formasında ali təhsil müəssisəsinə göndərmək.<br>• **Müraciət forması;**<br>• **Özünü təqdimetmə forması** (İngilis dili müsahibəsi üçün)<br>• **3.5x4.5 ölçüdə rəngli fotoşəkil;**<br>• **Şəxsiyyət vəsiqəsinin surəti;**<br>• **Məktəb attestatın ingilis dilində tərcüməsi və notarial təsdiqi** (əsli universitetə qəbul olanda təqdim olunmalıdır);<br>• **DİM tərəfindən keçirilmiş hər iki imtahanda topladığı balı təsdiq edən rəsmi sənəd;**<br>• **İngilis dili sertifikatı: İELTS və ya TOEFL** (olduğu təqdirdə).<br><br>**Qeyd 1:** DİM-in qəbul imtahanından uğurla keçən I-ci ixtisas qrupunun abituriyentləri 400 və daha çox bal toplayıbsa, onlar mütləq İnha Universiteti ilə BMU-nun birgə təşkil etdiyi müsabiqədə (ingilis dili şifahi, riyaziyyat və fizikadan yazılı onlayn formada) iştirak etmək üçün yuxarıda təqdim olunan sənədləri onlayn anket formasında təqdim etməlidirlər.<br><br>**Qeyd 2:** Proqrama qeydiyyat zamanı namizədin iş nömrəsi (bakalavriat imtahanı) və şəxsi kabinetin istifadəçi adını (FİN) təqdim etməli olacaqdır. |

| | | |
|---|---|---|
| | | **Qeyd 3:** Müsabiqədə iştirak etmək üçün qeydiyyat və daxili imtahanın dəqiq vaxtı DİM-in keçirdiyi qəbul imtahanlarının cavabları elan olunandan sonra bildiriləcək. |
| | | |
| **Sənədlərin təqdim edilməsi və FAQ:** | → | İkili Diplom Proqramı ilə əlaqədar sualları beu-inha@beu.edu.az e-mail ünvanına, İDP-nın rəsmi Facebook səhifəsinə www.facebook.com/ddp.beu.inha ünvanlamaq və ya (+994 12) 349-99-66/67 (daxili: 2423) zəng vurmaq mümkündür.<br><br>Əlavə məlumatlar ilə aşağıda ki müvafiq keçiddən tanış ola bilərsiniz:<br>• BMU-İNHA İDP / ELAN<br>• BMU-İNHA İDP / FAQ<br>• BMU-İNHA İDP / Daxili imtahanın keçirilməsi ilə bağlı təlimat |